**Страсбургб, 22 октйабр 2003- жц ил**

# ДЕМОКРАТИК ВЯТЯНДАШЛЫГ ЦЧЦН ТЯЩСИЛ ЦЗРЯ ХЦСУСИ ТЕРМИНЛЯРИН МЯЖМУЯСИ.

## ГАРШЫЛЫГЛЫ АНЛАШМАНЫН ИНКИШАФЫ.

**Карен О' Шеа**

**ДЭ ЫВ/ЕДУ/ ЖЫТ (2003) 29**

ЮН СЮЗ .

Мцяллиф бу мяжмуянин ясас мянбяси олан Аврмпа Шурасынын сянядляринин щазырланмасында иштирак едян бцтцн мцтяхяссисляря юз тяшяккцрцнц билдирир. Бунлара щесабатларын мцяллифляри, тятгигатчылар, семинар вя конфрансларын иштиракчылары вя Аврмпа Шурасынын кадр щейяти дахилдир. Онларын мцзакирялярдя фяал иштиракынын вя пешякарлыьынын нятижяси кими щямин мяжмуянин няшри мцмкцн олмушдур.

Мцяллиф цмид вардыр ки, бу мяжмуядя дярж олунмуш терминляр щесабатларда вя тятгигатларда ифадя олунмуш идейалары адекват шякилдя якс етдирир. Бу мяжмуянин тяртибаты заманы истсфадя олунмуш ядябиййат библиографийа щиссясиндя тягдим олунур.

МЦНДЯРИЖАТ

**Цмуми шярщ**
Эириш

**Бюлмя Ы. Ясас консерсийалар.**

Вятяндаш/вятяндашлыг
Вятяндашлыг мейданчалары
Вятяндаш вя Сийаси щцгуглары
Мядяни щцгуглары
Демократийа/Демократик
Мцхтялифлик
Игтисади вя сосиал щцгуглары
Демократик Вятяндашлыг цчцн Тящсил

Бярабярлик
Инсан щцгуглары

**Бюлмя ЫЫ. Просесляр вя практика.**

Тядвирляр
Фяал тялим
Бирья тялим
Тянгиди тящлил
Курикулумунун йениляшмяси
Гиймятляндирмя
Тящсил алана йюнялдилмиш тядрис просеси
Юмцр бойу тящсил
Нятижяляр
Тятгигат
Мцяллим щазырлыыы

**Бюлмя ЫЫЫ. Нятижяляр.**

Сямяряли нятижяляр
Когнитив нятижяляр
Иштирак
Мцсбят сцлщ
Тядбирлярин нятижяляри
Мясулиййят
Сосиал барышма
Щямряйлик
Давамлы инкишаф

**БИБЛИОГРАФИЙА**

**Цмуми шярщ**

Демократик Вятяндашлыг цчцн Тящсил (бундан сонра мятндя ДВТ кими адландыражаг) Авропа Шурасында вя мцхтялиф юлкялярдя бюйцк мараг доьуран бир мювзудур. Бу мювзуйа мараьын эенишляндирилмяси жямиййятдя жанлы дебатлара вя йени партнйорларын жялб олунмасына эятириб чыхарды. Бу йени патнйорларын бюйцк яксяриййяти ДВТ-нин щяйата кечирилмясиндя бюйцк рол ойнайырлар. Ейни заманда тяжрцбя эюстярир ки, партнйорлар ДВТ ятрафында кечирилян мцзакиряляр вя дебатлар заманы бу мювзуйа хас олан чохсайлы спесифик терминляр иля таныш дейил. Щямин китаб бу терминлярин изащ едилмяси иля бярабяр охужунун ДВТ-нин ясас идейалары иля даща ятрафлы таныш едилмяси мягсядини эцдцр.

Бу китабда ДВТ иля баьлы бцтцн терминлярин ящатя олунмасы нязярдя тутулмур. Сечилмиш терминляр Авропа Шурасынын бу мювзу иля баьлы ясас сянядлярдя истифадя олунур. Бу китабда терминлярин дягиг тяснифаты дейил, онларын гыса изащаты вя ДВТ-иля конкрет баьлылыьы верилир.

Китаб 31 термини ящатя едир вя цч бюлмядян ибарятдир.

- Ясас консепсийалар
- ДВТ-нин просесляри вя щяйата кечирилмяси
- ДВТ-нин нятижяляри

Беляликля, бу китаб охужуну ДВТ иля баьлы важиб терминляри иля таныш едир.

ЭИРИШ

Цмуми мялумат

ДВТ иля баьлы биринжи Лайищя (1997-2000-жи илляр) тядгигат, конфранслар вя пилот «вятяндашлыг мейданчалары» васитясиля демократик вятяндашлыг цзря тящсилинин консепсийасыны вя практикада щяйата кечирилмясини мцяййян едилмяси мягсядини эцдцрдц. Бу лайищянин уьурла баша чатдырылмасы нятижяси кими 2001-жи илдя икинжи лайищянин щяйата кечирилмяси башланмыш онун баша чатдырылмасы 2004-жц илдя планлашдырылырды. Икинжи Лайищя чярчивясиндя ДВТ-иля баьлы сийасят ясас приоритет истигамятляриндян кими мцяййянляшдирилмишдир вя щал щазырда бир сыра тядбирляр щяйата кечирилир.

2001-жи илдя ДВТ сащясиндя сийасят вя ганунверижилик мювзусунда биринжи бейнялхалг семинар кечирилмиш вя щямин ил бцтцн Авропа

Шурасына цзв юлкялярдя ДВТ Лайищяси цзря милил координаторлар тяйин олунмушур. Щал-щазырда ики ящямиййятли тядгигат, о жцмлядян «ДВТ сащясиндя сийасят цзря цмумаврропа тядгигаты» вя « ДВТ сащясиндя сийасятин цмуми чярчивяси» щяйата кечирилир.

Йухарыда гейд олундуьу кими, ДВТ сащясиндя щяйата кечирилян биринжи лайищянин мягсяди ДВТ-нин консепесийасынын вя бунун щяйата кечирилмяси механизмляринин мцяййянляшдирилмяси иди. Щямин мцддят ярзиндя бир сыра ящямиййятли сянядляр щазырланмышдыр. Бу сянядлярин яксяриййяти библиографийада гейд олунур

**Мягсяд**

Бу китабын ясас мягсяди цзв юлкялярдя вя практики иши эюрянляря ДВТ-нин идейаларынын дястяклянмяси вя сямяряли шякилдя щяйата кечирилмясиндя кюмяк етмякдир. Ашаьыдакываситяляр истифадя олунур:

- ДВТ иля баьлы ясас терминляринин изащаты охужуйа тягдим олунур.
- ДВТ-нин цч ясас истигамятляри изащ олунур:
- а) Ясас консепсийалар б) просесляр вя щяйата кечирилмя механизмляри ж)нятижяляр
- Цзв юлкялярдя Демократик Вятянадашлыг цзря Тящсилинин идейасыны анлашмасы

Китабда 31 ясас идейалары юз яксини тапмышдыр. Бу идейалар Авропа Шурасы тяряфиндян тягдим олунан сянядлярдя, щесабатларда вя тядгигатларда иш юз яксини тапмышдыр!

**Сруктур**

Китаб ашаьыдакы структура уйьун тяртиб олунмушдур

**1-жи бюлмя: Ясас консепсийалар**.

Бу бюлмядя ДВТ идейасы «вятяндашлыг», «вятяндаш вя сийаси щцгуглар» вя «инсан щцгуглары терминляринн изащаты вситясиля ачылыр.

**2-жи бюлмя: Просесляр вя Практика.**

Бу бюлмядя, «юмцр бойу тящсил», «Фяал тялим», «бирэя тялим» вя «Критик тящлил» терминляринин изащ олунмасы йолу иля охужалара ДВТ иля баьлы просесляр вя практики механизмляр щаггында мялумат верилир.

**3-жц бюлмя: ДВТ-нин нятижяляри.**

ДВТ Програмынын нятижяляри когтитив компенсийалар, иштирак мясулиййят вя щямряйлик терминляринин васитяси иля охужуйа тягдим тягдим олунур.

Библиографийа.

Китаб библиографийа бюлмяси иля тамамланыр. Бу бюлмядя истифадя олунмуш мятнляр вя мянбяляр эюстярилир**.**

**1-жи бюлмя: Ясас консепсийалар**.

ДВТ иля баьлы ващид анлайышынын ялдя олунмасы цчцн ашаьыдакы терминляр охужуйа тягдим олунур вя бу терминляринин изащаты Демократик Вятянадашлыг цчцн Тящсилинин ясас **консепсийалары щаггында ятрафлы мялумат верир. Бу бюлмяйя ашаьыдакы терминляр дахилдир**

Вятяндаш/вятяндашлыг
Вятяндашлыг мейданчалары
Вятяндаш вя Сийаси щцгуглары
Мядяни щцгуглары
Демократийа/Демократик
Мцхтялифлик
Игтисади вя сосиал щцгуглары
Демократик Вятяндашлыг цчцн Тящсил
Бярабярлик
Инсан щцгуглары

**Vətəndaş/ Vətəndaşlıq**

Avropa Şurasında artıq get-gedə daha çox qəbul edilməyə başlanılıb ki, “vətəndaş” və vətəndaşlıq terminləri nə sabitdir, nə də ki, hər hansı bir tərifi vardır.

DVT kontekstində vətəndaş termini geniş şəkildə “***cəmiyyətdə digərləri ilə birlikdə yaşayan bir şəxs***” kimi təsvir edilə bilər. Bununla belə bu heç də vətəndaş ideyasının milli dövlətlə bağlı artıq tətbiq edilmədiyi və ya uyğun olmadığı demək deyil, ancaq artıq milli dövlət hakimiyyətin təkcə diqqət yetirdiyi bir şey olmadığı üçün konsepsiyaya qlobal bir baxışın yaradılmasına

ehtiyac yaranmışdır.

Vətəndaş və vətəndaşlığın daha geniş şəkildə dərk edilməsi ***bizim birlikdə necə yaşamağımızı araşdırmaq üçün yeni potensial model*** təklif edir. Əsas məsələ "milli dövlətin" hüdudlarından kənara çıxaraq insanların yaşadığı yerli, regional və beynəlxalq kontekstləri əhatə edən "ictimaiyyət" konsepsiyasına doğru hərəkət etməkdir.

Bu cür dərk etmə çərçivəsində "vətəndaş" və "vətəndaşlıq" ideyası ***"status"*** və ***"rol"*** ideyasını ehtiva edir. Ona yalnız hüquq və öhdəliklərlə bağlı məsələlər deyil, həm də bərabərlik, müxtəliflik və sosial ədalət ideyaları daxildir. O, artıq "vətəndaşlıq" ideyasının sadəcə səs verməklə məhdudlaşdırmaq üçün kifayət etmir. Ona həm də bir fərd tərəfindən icmanın (yerli, milli, regional və beynəlxalq) həyatına təsir edən ***hərəkətlər çeşidi*** də daxil olmalıdır və bunun üçün də fərdlərin birlikdə fəaliyyət göstərə biləcəkləri ***bir ictimai məkan tələb edir.***

**Vətəndaşlıq Məskənləri**

Vətəndaşlıq məskəni demokratik həyatın yeni və ya innovativ formasına verilən addır. Bu məkanlar müasir demokratik vətəndaşlığa həyat verməyə və onun prinsiplərini həyata keçirməyə cəhd edən lokal kütləvi layihələrdir.

Vətəndaşlıq məskəni bir spesifik yerli ərazi daxilində və ya bir çox coğrafi ərazilər boyunca və yaxud əslində bütün ölkəni əhatə edən ***bir çox oxşar tədbirləri*** əhatə edə bilər.

Bu cür məskənlərdə ümumilikdə ***müxtəlif oyunçular (iştirakçılar) olur. Bu məskənlər iştirakların özləri tərəfindən idarə olunur, müxtəlif iştirak formalarını araşdırır, kiminsə kənarlaşdırılması ilə mübarizə aparır və sosial dəyişikliyə doğru istiqamətlənmişlər.*** Onlar təşviq etməyə və möhkəmlətməyə çalışdıqları dəyərlərə və demokratik proseslərə əsaslanırlar.

**Mülki və Siyasi Hüquqlar**

Mülki və siyasi hüquqlar əsasən ***şəxslərin sahib olduğu və dövlətlərin onlara hörmət etməyə öhdəlik götürdükləri hüquq və azadlıqlardır.***

Çox zaman insan hüquqlarının "ilk nəsli" kimi nəzərə alınaraq onlar şəxsin azadlığını və toxunulmazlığını, ədalətli məhkəmə araşdırması hüququnu, təqsirsizlik prezumpsiyası hüququnu, evlənmək hüququnu, ictimai həyatda iştirak etmək hüququnu ehtiva edir. Onlara həm də işgəncənin və digər qəddar və qeyri-insani davranmanın, köləliyin və məcburi əməyin qadağan edilməsi daxildir.

Bu hüquqlar beynəlxalq səviyyədə 1966-cı ildə BMT

Assambleyası tərəfindən qəbul edilmiş Mülki və Siyasi Hüquqlar haqqında Paktda öz əksini tapmışdır.

**Mədəni Hüquqlar**

DVT konteksti daxilində "mədəni hüquqlar" konsepsiyası geniş şəkildə ***"müqəddərat" məsələləri ilə*** bağlıdır. Müqəddərat məsələlərinə daxildir: dil və dillə bağlı olan hər şey, qrupların, icmaların və insanların üzvlükləri, eləcə də irs məsələləri.

"Mədəni hüquqlar" ideyası bu günün ən çox mübahisələndirilən insan hüquqları debatlarından biridir. Çoxmədəniyyətli təbiəti ilə bizim cəmiyyətimiz daha geniş şəkildə bu reallığın siyasi və hüquqi tənzimlənməsini qəbul etmişdir, yəni hüquqların, onlara malik olan insanların və hətta onlara görə cavabdeh olan qrupların müəyyən edilməsi hələ də araşdırılmaqdadır.

**Demokratiya / Demokratik**

Demokratiya ***bir cəmiyyətdə birlikdə yaşamağın bir formasıdır.*** Demokratiya daxilində məsələlər və ya problemlər meydana çıxdıqda ***müxtəlif həll yolları arasında seçim etmək*** və bunu etmək üçün sərbəstliyin olması çox mühümdür.

Demokratiyanın bu cür dərk edilməsi diqqət yetirilən məsələlərdə dəyişiklik edir. Ənənəvi olaraq demokratiyanın bir idarə etmə forması və bir siyasi sistem kimi dərk edilməsi vətəndaşların sadəcə seçicilər kimi rolu ilə məhdudlaşdırılarması iştirak və iştirakçı demokratiya ideyaları ilə çağırışları ilə qarşılaşmışdır.

DVT daxilində "demokratik" zərfliyi ***vətəndaşlığın insan hüquqları prinsipləri və dəyərlərinə, insan ləyaqətinə hörmətə, plüralizmə, mədəni müxtəlifliyə və qanunun aliliyinə əsaslandığı*** faktını vurğulayır.

**Müxtəliflik**

Müxtəliflik dözümlülük ideyasından ***fərqliliyə həqiqi hörmətə və qiymətləndirməyə doğru*** hərəkət etməyi ehtiva edir. O, plüralizm və çoxmədəniyyətlilik ideyasının mərkəzində durur və buna görə də ***DVT-nin dayaq sütunudur.***

Ona görə də DVT-yə qavrayışları təhlil etmək, meyl və stereotipləri dağıtmağa yönələn imkanlar daxil olmalıdır. O, həm də yerli, milli, regional və beynəlxalq ictimaiyyətlərdə ***müxtəlifliyin alqışlanmasını və qəbul edilməsini*** təmin etməlidir.

**İqtisadi və Sosial Hüquqlar**

İqtisadi və sosial hüquqlar əsasən ***insanın tam inkişafı və onun lazımi həyat səviyyəsi standartları ilə təmin edilməsi*** üçün lazım olan şəraitlərlə bağlıdır.

Çox zaman insan hüquqlarının "ikinci nəsli" kimi adlanan bu

hüquqları həyata keçirmək daha çətindir, çünki onların əldə olan resurslardan asılı olduğu qəbul edilir. Onlara bu hüquqlar daxildir: işləmək hüququ, təhsil almaq hüququ, istirahət hüququ və müvafiq həyat səviyyəsi standartları hüququ.

Bu hüquqlar beynəlxalq səviyyədə 1966-cı ildə BMT Assambleyası tərəfindən qəbul edilmiş İqtisadi və Sosial Hüquqlar haqqında Paktda öz əksini tapmışdır.

**Demokratik Vətəndaşlıq üçün Təhsil**

Demokratik Vətəndaşlıq üçün Təhsil (DVT) mülki tədris və ya mülki təlim kimi daha çox ənənəvi olan proqramlardan meydana çıxmışdır. Bir yanaşma kimi DVT ***fərdi təcrübəni vurğulayır*** və ***həqiqi əlaqələr qurmaq istəyən icmaların inkişafını təşviq etmək üçün*** tərtib edilmiş təcrübələri axtarır. O, fərdlə və onun başqalarıyla əlaqələri, şəxsi və kollektiv müqəddəratların müəyyən edilməsi, birlikdə yaşama şəraitləri və s. ilə əlaqəlidir.

DVT-nin əsas məqsədi insanlara icmaların qurulması üçün kollektiv layihə hazırlamağa kömək edən bir mədəniyyətin - ***demokratiya və insan hüquqları mədəniyyətinin təşviqidir.*** Bununla da o, sosial bütövlüyü, qarşılıqlı anlaşmanı və həmrəyliyi möhkəmləndirməyə çalışır.

Bir təhsil təşəbbüsü kimi DVT yaşından və ya cəmiyyətdəki rolundan asılı olmayaraq ***bütün fərdləri əhatə edir.*** Ona görə də ilkin olaraq tətbiq edildiyi məktəb mühitindən xeyli kənara çıxır. DVT aşağıdakı məqsədlərə diqqət yetirən ***həyat boyu bir öyrənmə prosesidir:***

- § iştirak,
- § tərəfdaşlıq,
- § sosial bütövlük,
- § çıxış imkanı,
- § bərabərlik,
- § məsuliyyətlilik və
- § həmrəylik.

Buna görə də DVT ***şagirdlərə, gənc insanlara və böyüklərə öz icmalarında qərar qəbul etmə proseslərində fəal və məsuliyyətlə iştirak etməyə yardım etməyə çalışan*** aşağıdan yuxarıya tərtib olunmuş praktikalar və fəaliyyətlər toplusudur. İştirak insan hüquqları və azadlıqları, müxtəlifliklərin bərabərliyi və qanunun aliliyi kimi ümumi fundamental dəyərlər barədə məlumatlılığa və öhdəliyə əsaslanan demokratik mədəniyyətin təşviqi və möhkəmləndirilməsi üçün əsas amildir.

O, müxtəlif formal və qeyri-formal öyrətmə və öyrənmə mühitlərində demokratik prinsiplər və prosedurlarla əlaqəli olan ***biliklərin, dəyərlərin və bacarıqların əldə edilməsi, tətbiq edilməsi və yayılması*** üçün bütün həyat boyu imkanların yaradılmasına diqqət yetirir.

**Bərabərlik**

Bərabərlik ***hər bir kəsin yaşından, cinsindən, dinindən, etnik mənsubiyyətindən və s. asılı olmayaraq eyni hüquqlara sahib olduğunu*** qəbul edən bir "konsepsiyadır".

İnsan Hüquqlarının Universal Bəyannaməsinin preambulası "insan ailəsinin bütün üzvlərinin ayrılmaz ləyaqətinin və bərabər və özgəninkiləşdirilə bilinməyən kimi qəbul edilməsi dünyada azadlığın, ədalətin və sülhün əsasıdır" sözləri ilə başlayır.

Vətəndaşlıq konsepsiyası bərabərlik məsələlərindən ayrı tutula bilməz. Cəmiyyətlər daxilində və ya onlar arasında bərabərsizliklərin olması effektiv vətəndaşlığa mane olur. Ona görə də bərabərlik ideyası ***DVT-nin ürəyində yerləşir.*** Belə olduğu üçün o, bərabərlik məsələləri ilə bağlı olmalı və ***insanları ayrı-seçkiliyin bütün formalarına qarşı tədbirlər görməyə yönəltməlidir.***

**İnsan Hüquqları**

İnsan hüquqları əsasən ***insan övladlarının öz potensiallarına uyğun olaraq tam inkişafı*** və onların digər şəxslərlə münasibətləri, eləcə də ***milli dövlətlərin fərdlər qarşısındakı öhdəlikləri*** ilə əlaqəlidir.

Əhəmiyyətli insan hüquqları sənədlərinə İnsan Hüquqlarının Universal Bəyannaməsi, İnsan Hüquqları haqqında Avropa Konvensiyası və Uşaq Hüquqları Konvensiyası daxildir.

Ənənəvi olaraq insan hüquqları ***mülki, siyasi, sosial, iqtisadi və mədəni hüquqlar*** kateqoriyalarını bölünürdü. Bu kateqoriyalar çox zaman xüsusi vaxt çərçivələri ilə bağlıdır, yəni mülki və siyasi hüquqları "birinci nəsil" hüquqları, sosial və iqtisadi hüquqları "ikinci nəsil" və mədəni yaxud inkişaf hüquqları isə "üçüncü nəsil" hüquqları kimi qəbul edilirdi.

Hüquqların kateqoriyalara bölünməsi dəyərlərinə baxmayaraq DVT ***insan hüquqlarının inteqrasiya edilmiş bir şəkildə dərk edilməsini təşviq etməyə çalışır.*** O, bütün kateqoriyalara – mülki, siyasi, sosial, iqtisadi və mədəni – eyni səviyyədə diqqət yetirir. Beləliklə də bəzi hüquqların digərlərinə nisbətən daha vacib olduğu barədə mövcud olmuş tendensiyada balans yaratmağa çalışır.

Həm də nəzərə almaq vacibdir ki, ənənəvi olaraq insan hüquqlarının dövlət və onun fərdlə münasibəti ilə əlaqələndirilməsinə baxmayaraq DVT daxilində ***insan hüquqlarının dili "qrupların" və ya "insanların" hüquqlarına daha çox diqqət yetirilməsi dilidir.*** Bu ideyaların DVT-yə daxil edilməsinə edilən cəhdlər həm ***konsepsiyanın özünün inkişafı***, həm də yerli, milli və regional icmaların inkişafı üçün vacibdir.

**BÖLMƏ II: Proseslər və Təcrübələr**

Demokratik Vətəndaşlıq üçün Təhsil bir təhsil prosesidir. O, “ən yaxşı təcrübəyə” doğru can atır və ona görə də xüsusi qaydalar tərəfindən dəstəklənir. Praktika kimi o, müxtəlif cür metodologiyalardan istifadə edir. Aşağıda göstərilən terminlər heç də hər şeyi əhatə edən bir siyahı kimi başa düşülməməlidir, onlara sadəcə təhsil təşəbbüsünün ürəyində olanlarla tanışlıq kimi başa düşülməlidir. Terminlərə daxildir:

- · Fəaliyyət
- · Fəal Öyrənmə
- · Kooperativ (kollektiv) Öyrənmə
- · Tənqidi Təhlil
- · Karikulum Hazırlanması
- · Qiymətləndirmə
- · Öyrənənin Mərkəzdə Olduğu
- · Həyat Boyu Öyrənmə
- · Düşünmə
- · Araşdırma
- · Müəllim/Təlimçi Təlimi

**Fəaliyyət**

DVT öyrənmə proseslərində fəaliyyətin yeri ***fəal vətəndaşlığa doğru inkişafın*** mərkəzindədir. Bu, öyrənənləri ***öz bacarıqlarından faydalanmaqla və/və ya yeni bacarıqlar əldə etməklə*** öyrənmənin qavrayış ölçülərindən daha ötəyə hərəkət etmələrini mümkün etmək üçün öyrənmə prosesi daxilində götürülən bir öhdəlikdir.

Bununla belə fəaliyyətin qavrayış (koqnitiv) ölçüsü də vardır. O, iştirakçının nəyin baş verdiyini dərk etməsi ilə dəstəklənir. Bununla da fəaliyyət şəxs üçün daha artıq məna kəsb etməyə başlayır. DVT daxilində fəaliyyət ***bütöv prosesin bir hissəsidir*** və ona ayrıca olaraq baxıla bilməz.

Fəaliyyətlər ***bir çox səviyyələrdə*** baş verə bilər: öyrənmə mühitləri, qurumlar, yerli icma, eləcə də qlobal dəyişikliklər üçün fəaliyyətlər daxilində

**Fəal Öyrənmə**

Fəal öyrənmə ***“etməklə öyrənmək”*** prosesi kimi təsvir edilə bilər. O, ***öyrənənin öyrənmə prosesində passiv bilik alıcısından daha çox tərəfdaş kimi iştirak etdiyi*** bir təhsil prosesidir. Şəxslər və ya qruplar öyrənmə zamanı fəal iştirak etdikdə daha yaxşı öyrənirlər.

Öyrətmənin metodları ilə bağlı müxtəlif yanaşmalar və metodologiyalar tələb olunur. Seçilmiş metodlar ***öyrənən fikirləşmək, etmək və sonradan düşünmək imkanı*** yaratmalıdır. Bu üç ölçü ilə birlikdə ***fəal öyrənmə kamil bir insanın yetişdirilməsinə çalışır.***

***DVT ilə bağlı fəal öyrənmə metodlarına daxildir***: beyin hücumu, rol oyunu, debat, müzakirə və layihə işi

| | |
|---|---|
| **Kooperativ öyrənmə** | Kooperativ öyrənmə ***başqalarından və başqaları ilə öyrənmə*** deməkdir. O, ***qrup proseslərin əsas diqqət mərkəzində olduğu*** sosial və interaktiv öyrənməyə istinad edir. Kooperativ öyrənmə fəaliyyətləri insanlara ümumi layihələr üzərində işləməklə birlikdə öyrənmək imkanı yaradırlar. O, həm də öyrənənləri problemləri birlikdə çözməyə, düşünməyə və özlərini daha yaxşı ifadə etməyə həvəsləndirə bilər. DVT-də onun yeri ***DVT-nin özü kimi aydındır və birlikdə yaşayan vətəndaşların inkişafı ilə bağlıdır.***<br><br>Kooperativ öyrənmə fəaliyyətlərinin daxil edilməsi fərdi və kollektiv öyrənmə arasında tarazlığı təmin edir. Bu fərdi öyrənmə məqsədi güdmür və kompüterlərdən istifadə, fərdi düşüncə işinə cəlb edilmə fərdlərin layihə işinə cəlb edilməsi vasitəsi ilə ***tamamlana bilər.*** Kooperativ öyrənmə fəaliyyətlərinə ***ikinəfərlik fəaliyyətlər, məktəb onlayn şəbəkələri və s.*** kimi şəbəkə yanaşmaları da daxil ola bilər. |
| **Tənqidi Təhlil** | Tənqidi təhlil ***öyrənənin tənqidi düşüncə bacarıqlarını inkişaf və istifadə etməyə həvəsləndirildiyi və dəstəkləndiyi bir prosesdir.***<br><br>Tənqidi düşüncə bacarıqları araşdırma, təfsir etmə, təqdim etmə və düşünmə bacarıqları daxildir. Buraya bir kəsin öz fikrini formalaşdırması, onu ifadə etməyi öyrənməsi və lazım olarsa yenidən nəzərdən keçirməsi prosesi daxildir. Tənqidi düşüncə adi izahlardan daha ötəyə gedir və ***məsələləri daha kompleks şəkildə araşdırır.***<br><br>Tənqidi düşüncə ***tənqidi sosial düşüncənin qurulmasının ayrılmaz bir hissəsidir*** və beləliklə də DVT-nin bir fundamental aspektidir. O, müasir cəmiyyətin və onu formalaşdıran qüvvələrin daimi təhlilini ehtiva edir.<br><br>Tənqidi təhlili dəstəkləyən metodologiyalara daxildir: ***media təhlili, debat, layihə işi*** və s. |
| **Karikulum hazırlanması** | Karikulum hazırlanması konsepsiyası ***bütün təhsil hallarında tətbiq edilir.*** Ona “Biz öyrənənin nə öyrənməsini istəyirik” və “Biz öyrənməyə necə dəstək verə bilərik” kimi məsələləri ***bütün təlimçilərin öyrənənlərlə birlikdə tətbiq etdiyi faktiki proseslərə və təcrübələrə çevirən bir proses kimi baxmaq olar.***<br><br>Sinif otağında, böyüklər üçün tədris qurumunda və ya milli karikulum şurasında olmasından asılı olmayaraq karikulum hazırlanması öyrənənlərin ehtiyaclarına cavab verən ***öyrənmə bazalarının yaradılması*** ilə məşğul olmaq iradəsini ehtiva edir.<br><br>Hansı şərait olursa-olsun ideal olaraq karikulum hazırlanması DVT-nin genişlənməsi üçün öyrətmə və öyrənmə barədə yeni |

ideyalar kimi mütəmadi ***yenidən qiymətləndirmə və dəyişiklik*** etmək üçün öhdəlik götürməyi tələb edir.

**Qiymətləndirmə**

Qiymətləndirmə ***nəyin edildiyi barədə düşünmək və edilənlərin dəyişiklik üçün açıq olduğu bir prosesdir.*** Qiymətləndirmə dəyərləndirmə deyildir. O, yalnız nəyin baş verdiyi ilə maraqlanmır, həm də nəyin ***daha yaxşı edilə biləcəyinə nəzər salır.*** O, düşünmə və hərəkət etmə prosesidir.

***Qiymətləndirmə proseslərə əsaslanan bir fəaliyyətdir.*** Ona daxil ola bilər: məqsədlərin, məramların və hədəflərin müəyyən edilməsi, iştirakçının seçimi, məlumat toplanması, təhlil və yayılması.

Bir təhsil prosesi kimi qiymətləndirmənin DVT-nin inkişafında mühüm yeri vardır. O, ***bütün səviyyələrdə*** - sinif otağından və ya öyrənmə mühitindən tutmuş ən yüksək səviyyədə olan siyasət işinə qədər nəyin baş verdiyinin araşdırılmasını ehtiva edir. Bundan əlavə ona ***"ən yaxşı təcrübəni" təşviq etmək öhdəliyini götürməklə*** dəstək verilməlidir.

**Öyrənənin Mərkəzdə Olduğu**

Təhsilə "öyrənənin mərkəzdə olduğu" yanaşma ***öyrənənin nəyisə başa düşmək üçün etdiyi səyləri öyrənmə prosesinin mərkəzinə qoyur.*** Beləliklə də fərd ən əsas diqqət mərkəzində olur. Öyrənmənin başlanğıc nöqtəsi ***onların öz təcrübələridir.***

Buna görə də DVT karikulumu ***fərdi,*** işçini və ya vətəndaşı həyatları boyunca onları ***narahat edən məsələləri əhatə etməklə*** ümumilikdə öyrənənə diqqət yetirməlidir. Bununla da DVT karikulumu hazırlanan zaman hər bir öyrənmə mühitinin unikallığı nəzərə alınmalıdır.

**Həyat Boyu Öyrənmə**

Həyat boyu öyrənmə hər bir kəsin ***davamlı öyrənmə prosesində*** olduğunu qəbul edir. DVT üçün bu konsepsiyanın əhəmiyyəti Demokratik Vətəndaşlıq üçün Təhsilin məktəblərlə məhdudlaşdırıla bilmədiyi faktı ilə bağlıdır. Beləliklə də demokratik vətəndaşlıq üçün öyrənməyə ***müxtəlif çeşidli formal və qeyri-formal təhsil mühitlərini ehtiva etməli olan*** bir kompleks məsələ kimi baxılmalıdır.

Həyat boyu öyrənmə ***təhsilə kompleks yanaşmanı tələb edir.*** O, iş yerləri, yerli icma tədbirləri kimi bir çox yerlərdə meydana çıxır və cəmiyyətdəki bütün şəxslər və qruplar üçün əlçatan olmalıdır, məsələn: media, polis, səhiyyə işçiləri və s.

Effektiv həyat boyu öyrənmə proqramının hazırlanması bütün səviyyələrdə müvafiq qurumların və təşkilatların ***koordinasiyasını və əməkdaşlığını*** tələb edir.

**Düşünmə**

Düşünmə ***fərdin və ya qrupun nəyin baş verdiyi aktiv şəkildə nəzərdən keçirməsi prosesidir.*** Düşünmə həm də düşünərək öyrənmə və hərəkət etmə ideyasına doğru öhdəliyin bir hissəsidir.

DVT düşünərək öyrənməni təşviq edən bir prosesdir. ***Düşünmə fəaliyyətə məna verməyə (və ya tərsinə) kömək edir.*** Düşünmə olan fəaliyyətlər olmadan öyrənən özünün qavrayışını qurmaq üçün həqiqi imkanını itirə bilər.

Düşünmə tədbirlərinə daxil ola bilər: ***gündəliklərdən və jurnallardan istifadə etmək,*** nəyin baş verdiyini və ya nəyin öyrənildiyini ***kiçik qruplarda bölüşmək.***

**Araşdırma**

Araşdırma ***öyrənmə və kəşf etmə*** barədədir. O, məsələlərin və ya ideyaların tədqiq, təhlil edildiyi və paylaşdırıldığı bir prosesdir. Ümumilikdə təhsil araşdırmasının, eləcə də xüsusi olaraq DVT araşdırmalarının ***çoxlu formaları və onlara çoxlu yanaşmalar*** vardır.

Təhsil araşdırması ***öyrənmə prosesinin daha çox başa düşülməsini*** təmin etməyə dəstək verə bilər. O, üzv dövlətlərdə karikulumların yaradılmasına dəstək verə biləcək ***baxışlar və əsas konsepsiya və ideyalar barədə məlumat*** verə bilər. O, hazırkı praktikanı təhlil etmək, nəyin işlədiyini, nəyin daha yaxşı işləyə biləcəyini kəşf etmək üçün imkanlar yaratmaqla ***qiymətləndirməyə dəstək verə bilər.*** O, öyrənənlərin həyat barədə fikirlərinin və ideyalarının öyrənilməsini və sənədləşdirilməsini təmin etməklə ***demokratik təcrübələri dəstəkləyə bilər.***

**Müəllim/Təlimçi Təlimi**

Müəllim/Təlimçi Təlimi ***bütün öyrədənlərin hər fəaliyyətə başlamazdan əvvəl, həm də davamlı peşəkar inkişafına verilən geniş ifadədir.***

Ona DVT-nin proseslərində və təcrübələrində vəzifələri olan ***öyrədənlərin bir ekspert qrupuna olan ehtiyaca cavab*** kimi də baxıla bilər. Beləliklə də o, DVT siyasətinin mühüm bir komponentidir.

DVT ***ənənəvi "bilik verən" rollarını "öyrənmənin fasilitatoru" ilə əvəz edir*** və beləliklə də yeni təlim modellərini tələb edir. Belə modellərə peşəkar fəaliyyətləri ərzində öyrədənlərin əlavə təlim almaları üçün müxtəlif çeşidli imkanlar daxil olmalıdır.

**BÖLMƏ III: Nəticələr**

DVT-nin nəticələri onun fərdi öyrənənlər arasında nail olmağa çalışdığı dərk etmə (qavrayış), münasibətlər (təsir edən) və davranışlarla (praqmatik) bağlıdır. O, həm də onun daha geniş cəmiyyət səviyyəsində nəyə nail olmağa çalışdığı ilə bağlıdır. Terminlərə daxildir:

- · Təsir edən (affektiv) nəticələr
- · Qavrayış nəticələri
- · İştirak
- · Pozitiv Sülh
- · Praqmatik və ya Hərəkət Nəticələri
- · Məsuliyyət
- · Sosial bütövlük
- · Həmrəylik
- · Davamlı İnkişaf

**Təsir edən (affektiv) nəticələr**

Affektiv nəticələr fərdlərin özlərini və öz əlaqələrini müəyyən dəyərlərə müvafiq olaraq qurmaları ilə əlaqədardır.

Hər hansısa bir fərdin malik olduğu dəyərlər dəyişə bilər. Bu dəyərlər şəxsin necə qərarlar verməsinə təsir göstərə bilər. Onlar seçimlərin edilməsini asanlaşdırır və mühitin qurulmasına kömək edir. Belə dəyişən təbiət nəticəsində ***dəyərlərin və münasibətlərin inkişafı DVT-nin əsas öyrənmə nəticəsidir.***

DVT daxilində xüsusi diqqət ***demokratiya və insan hüquqları ideyasını dəstəkləyən dəyərlərə verilir.*** Bunlara daxildir: özünü və digərlərini tanıma və hörmət etmə, dinləmə qabiliyyəti və münaqişələrin sülh yolu ilə həllində iştirak etmə.

**Qavrayış nəticələri**

***Qavrayış sözü adətən dərk etmə və məzmunu bilmə ilə bağlıdır.*** DVT ilə bağlı o, geniş mənada üç səviyyədə biliklə bağlıdır: nə isə barədə biliyi olmaq, nəyisə bilmək və "nou-hau" və ya prosedurları bilmək.

Öyrənənlərin ***kollektiv həyatın qaydalarını və bu qaydaların necə hazırlandığını, onların mənşəyini və onların məqsədini bilmələri*** vacibdir. Həm də öyrənənlərin ***cəmiyyətdəki hakimiyyət səviyyələrini və dövlət qurumlarının necə işlədiyini,*** insan hüquqlarını və s. bilmələri də vacibdir.

Bununla belə demokratik cəmiyyət "haqqında" bilik ***"dünyanın" daha yaxşı başa düşülməsini*** tələb edir. Bu cür bilik dünyanın davalı dəyişmədə olmasının təmin edilməsi ilə dəstəklənir. Cəmiyyətin inkişafında fəal şəkildə iştirak etmək üçün öyrənənlər ***bizim vaxtımızın debatları*** barədə müəyyən məlumatlara malik olmalıdırlar, məsələn: Mədəni hüquqlar nə deməkdir? Cavabdehlik dedikdə biz nəyi nəzərdə tuturuq?

Biliyin digər formaları ***"nou-hau"*** və ya ***prosedur biliyi*** ideyasında öz əksini tapır, məsələn: Debat nədən ibarətdir? Demokratik prosesə daxil edilmiş əsas yanaşmalar nədir? Belə biliklər ayrılmaz şəkildə praqmatik və ya səriştələr məkanı ilə bağlıdır.

**İştirak**

İştirak ***hər bir fərdin cəmiyyətdə öz yerini tutmasını və istənilən səviyyədə öz inkişafına töhfə verməsini təmin etməklə bağlıdır.***

İştirak hər bir insanın əsas hüquqlarından biri olan fərdlərin ictimai qərar qəbul etmə proseslərinə cəlb olunduğu demokratik sabitliyin əsas bir elementidir.

İştirak ***DVT-nin keyfiyyətini təmin edir.*** Bütün səviyyələrdə cəmiyyətin həyatında iştirak etmə ***fərdlərin bir-birləri ilə işləmək arzusu və bacarıqlarından,*** eləcə də cəmiyyətlər arasında, fərdlər və mövcud olan qurumlar arasındakı qarşılıqlı fəaliyyətdən asılıdır. Fərd iştirak barədə iştirak etməklə daha çox öyrənir, nəinki sadəcə iştirak barədə öyrənməklə.

Buna görə də DVT əsasən ***iştirak üçün imkanların təklif*** edilməsi ilə bağlıdır, ***çünki o iştirak bacarıqlarının inkişaf etdirilməsi*** və iştirak qarşısında duran maneələrin azaldılması məqsədini güdür.

**Pozitiv Sülh**

Pozitiv sülh ***kollektivin iradənin sülhün təşviqinə və sülhün qarşısında duran maneələrin aradan qaldırılmasına yönəldiyi bir vəziyyəti təsvir edir.*** O, sosial ədalət niyyətini və bununla da sülhün sadəcə qorxu, zorakılıq və müharibənin olmaması ideyasından daha çox şeyi ehtiva edir.

Ona ***münaqişələrin sülh yolu ilə həll edilməsi öhdəliyi*** daxildir və fərdlərin və şəxslərin bu keyfiyyətlərini artırmağa çalışır ki, bununla da sosial problemlər konstruktiv qaydada həll olunsun.

DVT təlimçiləri üçün o, həm də sinif otağında demokratik proseslərin təşviqi, hakimiyyət və ya hakimiyyətdən sui-istifadə məsələlərini həll etmək, eləcə də hər zaman dinləmə, konstruktiv dialoq bacarıqlarını və münaqişəni həll etmək öhdəliyini artırmağa çalışır.

**Praqmatik və ya Hərəkət Nəticələri**

Praqmatik və ya hərəkət nəticələri ***insanların təşəbbüs götürmə və cəmiyyətdə cavabdeh olma qabiliyyətlərinin yaxşılaşdırılması*** ideyası ilə bağlıdır. Onlar cəmiyyətin işlərinin nizamlanmasında və problemlərinin həll edilməsində ***fərdin fəal şəkildə iştirak etməsi və öz töhfəsini verməsi üçün ona imkanlar yaradır.***

DVT daxilində aydın şəkildə qəbul olunmuşdur ki, biliklər, münasibətlər və dəyərlər yalnız gündəlik şəxsi və sosial həyatda məna kəsb edir və beləliklə də ***hərəkət etmə bacarığında təcəssüm olunmuşdur.*** Belə bacarıqlara daxildir: bir-biri ilə yaşamaq və işləmək, əməkdaşlıq etmək, birgə fəaliyyətlərdə iştirak etmək, münaqişələri zor olmadan həll etmək və ictimai debatlarda iştirak etmək bacarığı.

| | |
|---|---|
| **Məsuliyyət** | "Məsuliyyətlər" konsepsiyası ***cavab vermək qabiliyyəti – başqalarına və özünə görə cavabdeh olmaq*** mənasını verir.<br><br>Məsuliyyətə ***fərdiləşməyə və cəmiyyətlərimizin fraqmentasiyasına reaksiya kimi*** baxıla bilər. O, birlikdə yaşamağın yeni mənəvi əsaslarını təklif etməyə çalışır. Bununla belə o, xüsusilə də təhsil baxımından uzlaşma ideyası ilə məhdudlaşdırıla bilməz.<br><br>***Məsuliyyət ideyası*** makro səviyyədə hökumət və mikro səviyyədə fərdlər olmaqla ***tam mühitdə (kontinuum) mövcuddur.*** O, bu iki son oyunçular arasında çoxsaylı oyunçuların olduğunu qəbul edir. O, həm də yerli və qlobal anlayışlar arasında bir məkan olduğunu qəbul edir. Məsələn, yerli səviyyədə məsuliyyətə verilən diqqət qlobal səviyyədə olan məsuliyyətlə əvəz edilə bilməz və ya tərsinə.<br><br>***Demokratik mühit daxilində məsuliyyət demokratiyanın həyata keçirilməsi ilə bağlıdır.*** Bu praktika səs verməqdən daha çox şeyi əhatə edir. O, debatlar, stereotiplərlə mübarizə, bərabərsizliklə mübarizə və cəmiyyətin inkişafı naminə hərəkət etmə daxil olmaqla bütün səviyyələrdə demokratik prosesdə iştirak etmək deməkdir.<br><br>Məsuliyyət bir demokratik praktika kimi ***başqalarını qəbul etmək bacarığı  və onlara hüquqları olan şəxs kimi cavab vermək üçün lazım olan iradə və səriştələr barədədir.*** Bundan əlavə o, həm də bizim fəaliyyətlərin hər bir insanın potensialının həyata keçirilməsinə imkan yaratmaq üçün lazım olan şəraitləri yaratmağa kömək etdiyini hər bir şəxsin başa düşməsini təşviq etmək deməkdir. |
| **Sosial Bütövlük** | Sosial bütövlük ***pozitiv insan münasibətlərini təşviq etmək üçün ciddi öhdəlik götürmüş*** bir cəmiyyətin "təsvirini" verir. O, mənsub olmaq hissini, fərdlərin və cəmiyyətin rifahını nəzərdə tutur.<br><br>Ona ***fəal şəkildə baryerləri və bölünmə səbəblərini aradan qaldırmaqla cəmiyyətin üzvlərinin həyat səviyyələrin yüksəltmək üçün*** öhdəlik götürülməsi daxildir.<br><br>***Pozitiv sülh ideyası ilə bağlı olaraq*** bu termin geniş şəkildə Avropa Şurasının sənədlərində istifadə edilir. Belə olmaqla o, arzu edilən nəticə və ya məqsəd olduğuna görə DVT əsas məntiqi əsasıdır. Bu mənada DVT-yə insan hüquqlarına hörmət edilməsinin təşviqi və zorakılığın olmaması üçün öhdəliyin götürülməsi vasitəsilə ***sosial bütövlüyə töhfə verən*** bir alət kimi baxıla bilər. |

| | |
|---|---|
| **Həmrəylik** | Həmrəylik bir çox istiqamətlərdə ***fərdlərin öz məkanlarından daha ötəyə getmə bacarığı və digərlərinin hüquqlarını tanımaq, eləcə də bu hüquqların müdafiəsi üçün hərəkət etmə arzusunun olması ilə bağlıdır.***<br><br>O, eyni zamanda DVT-nin ona görə əsas məqsədlərindən biridir ki, çünki fərdləri ***öz həyatlarının tam ölçüləri ilə*** yaşamaları üçün bilik, bacarıq və dəyərlərlə təchiz edir.<br><br>Həmrəylik fəaliyyəti yuxarıda müəyyən edilmiş fəaliyyət ideyası ilə sıx bağlıdır. Bununla belə ***həmrəylik davranış toplusu olduğu qədər həm də düşüncə tərzidir.*** |
| **Davamlı İnkişaf** | Davamlı inkişaf üçün öyrətmə DVT daxilində ***vacib əhəmiyyəti olan bir məqsəddir.*** O, həm yerli, həm də qlobal inkişaf proseslərinin ***sosial, ətraf mühit və iqtisadi inkişaf arasında balansa nail olmalı olduqlarını*** qəbul edir.<br><br>Ona görə də DVT fərdlər arasında davamlı inkişaf etmə prinsipinə doğru irəliləyişləri dəstəkləyir. O, bunu ***inkişaf konsepsiyasının daha çox başa düşülməsi***, eləcə də davamlı inkişaf gələcəyini qurmaq üçün başqaları ilə işləməkdən ötrü tələb olunan ***dəyərləri və bacarıqları aşılamaqla*** edir. |